# Qələbəmizə zəmanət verən və heç vaxt sarsılmayacaq möhtəşəm ümumxalq birliyi

Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev əlçatmaz olan fitri istedadı, uzaqgörən müdrik siyasəti, dərin zəkası, zəngin intellektual səviyyəsi və yüksək mədəniyyəti ilə, dünyanın aparıcı telekanallarına, xüsusilə də, əvvəlcədən öyrədilib göndərilmiş, "erməni virusu"na yoluxdurulmuş qərəzli müxbirlərə böyük səbir və təmkinlə verdiyi çoxvektorlu möhtəşəm müsahibələri ilə dünya siyasətində liderlər mövqeyindədir. Siyasi möhtəkirlərə, ədalətsiz beynəlxalq birliklərə liderliyin kökündə ədalətin olduğunu özünün timsalında dəqiq və sərrast göstərir, onları ədalətə səsləyir.

Zəngin, siyasi bilik tələb edən sərrast hazırcavablığı ilə dünyanın diqqətini özünə cəlb edən cənab İlham Əliyev işğalçı Ermənistanın davamlı hərbi təcavüzünə məruz qalan Azərbaycanın öz torpağında özünü müdafiə etdiyini, BMT TŞ-nin 30 ildir icra edə bilmədiyi məlum 4 qətnaməsinin tələblərini yerinə yetirdiyini və bu haqq mübarizədə terrorçuları zərərsizləşdirərək heç bir beynəlxalq hüququ və müharibə qaydalarını pozmadığını, ermənilərdən fərqli olaraq dinc əhaliyə təhlükə yaratmadan 1949-cu il Cenevrə konvensiyasına riayət etdiyini elan edərək təkzibedilməz faktlarla dünya ictimaiyyətinin gözü qarşısında mənfur qüvvələri ifşa edir.

Sosializm sisteminin süqutuna səbəb olan kapitalizmin baş ideoloqu, yeni dünya ni zamının əsasnaməsi sayılan məşhur "Texnotron era" adlı kitabın müəllifi, siyasət və dövlət xadimi Zbiqnev Bjezinski ulu öndər Heydər Əliyev haqqında demişdir: "Heydər Əliyevin ölümü ilə dünya siyasətində bir boşluq yarandı!". Ancaq dünyada gedən ictimai -siyasi proseslər onu göstərir ki, əgər o sağ olsaydı, yəqin ki, deyərdi, cənab İlham Əliyevin simasında o boşluq artıq dolmuşdur... Belə ki, dünyada gedən ictimai-siyasi proseslərin bizim əleyhimizə yönəldildiyi və Azərbaycan haqqındakı həqiqətləri özümüzdən də yaxşı bilən Dağlıq Qarabağ ətrafında cərəyan edən bütün hadisələri, əvvəldən axıra qədər bizdən də artıq izləyən və həqiqətləri beynəlxalq ictimaiyyətdən gizlədərək erməni feyklərinin yayılmasına dəstək verən və açıqdan-açığa onları müdafiə edərək ədalətsiz qərarlar qəbul edən ermənipərəst dünya birliklərinin qərəzli hücumlarına sinə gərmək, onların Dağlıq Qarabağ həqiqətləri ətrafında yaratdıqları 30 illik informasiya blokadasını darmadağın etmək, nəinki riyakar Paşinyanın, dövləti və hərbi cinayət törədərək soyqırımı siyasəti aparan faşist olduğunu, hətta əsrlərdir ki, ermənilərin özləri haqqında dünyada yaratdıqları mifi belə darmadağın etmək və heç vaxt olmadığı kimi beynəlxalq ictimaiyyətin gözündən salmaq, doğrudan da, iti zəka, fitri istedad, müdrik, zəngin siyasi bilik və hünər tələb edir.

Sultan (qızıl) Əbdülhəmidi yıxmadan Osmanlı İmperiyasını devirə bilməyən qüvvələrin törəməsi ulu öndər Heydər Əliyevi vəzifəsindən uzaqlaşdırandan sonra Dağlıq Qarabağ işğalına nail olan qüvvələr, bu gün, torpaqlarımızı işğaldan azad edə biləcək yeganə qüvvə cənab İlham Əliyev olduğunu çox gözəl bildiklərindən bütün qüvvə və bacarıqlarını ona qarşı yönəldirlər.

İştirakçı olduğumuz məlum hadisələri təhlil edəndə öz-özlüyündə bunlar təsdiqini tapmış olur ki, 30 ildir yalan vədləri və mənasız bəyanatları ilə vaxtı uzadan “Minsk qrupu”nun məqsədi, məhz, cənab İlham Əliyevin prezidentlik səlahiyyətlərinin qurtarmasına hesablanmışdır. Lakin gördülər ki, Azərbaycan xalqı müdriklik edib referendumla onun prezidentlik səlahiyyətlərini artırdı və başa düşdülər ki, bu müddətdə onların məkrli planları işləməyəcək və bu vaxtı gözləməyərək çoxdan xərçəng kimi içimizə yayılan “beşinci kalon” və onun simptomlarını işə saldılar. Çünki, bilirdilər ki, cənab İlham Əliyev nəinki Qarabağı, o hətta keçmiş əsrlərdə ermənilərə verilmiş torpaqlarımızı geri alaçaqdır. Lakin ölkədə gedən məqsədyönlü kadr islahatları öz işini gördü. Prezidentin xalqla arasında uçurum yaradan qüvvələr aradan qaldırıldı, xalq öz liderinə qovuşdu, onu olduğu kimi görə bildi, sanki onu yenidən kəşf etdi.

Qədirbilən müdrik Azərbaycan xalqı öz liderini yaxından tanıdı, ona güvəndi və sevdi. Bütün Azərbaycan xalqı bir yumruq kimi onun ətrafında birləşdi. Azərbaycan tarixində misli-bərabəri görünməyən, müharibədə qələbəmizə zəmanət verən və heç vaxt sarsılmayacaq bugünkü möhtəşəm ümumxalq birliyi yarandı! İndi vətənini və xalqını sevən bütün Azərbaycan xalqı bir nəfər kimi cənab İlham Əliyevin xalqımızın dili ilə desək başına and içir. Bu məni qələbəmiz qədər sevindirir. Sevinirəm ona görə ki, bütün xalqımız öz liderində olan bu yüksək dəyərləri görə bildi və möhtəşəm ümumxalq birliyi yarandı.

Unutmamalıyıq ki, cənab İlham Əliyev ən azı beş cəbhədə vuruşur. Birinci arxa cəbhə - “beşinci kalon”un tör-töküntüləri ilə, ikinci - döyüş cəbhəsində, üçüncü - informasiya cəbhəsində, dördüncü - dünya siyasət meydanında, beşinci - dost kimi görünən düşmən qüvvələrlə... Belə ki, müzəffər ordumuz Laçın və Şuşaya yaxınlaşdıqca həmin qüvvələrin əsl sifətləri görünür. Öz ərazisində terrorçulara qarşı mübarizə aparan Azərbaycanı hərbi təxribata çəkməyə çalışırlar. Azərbaycanın müharibə zonasından kənarda olan şəhər və kəndlərini, dinc əhalini Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutulmasına rəvac verirlər. Bütün bunları nəzarətdə saxlayaraq təxribatlara getməyən və nəyi necə, nə vaxt etmək lazım olduğunu çox gözəl bilən siyasi lider, Ali Baş Komandan cənab İlham Əliyev KTMT-yə üzv olan dövlətlərin

müharibəyə cəlb edilməsinə imkan vermir, pusquda dayanıb bu məqamı həsrətlə gözləyən o qüvvələrin gizli planlarının qarşısını alır. Heç bir beynəlxalq hüquq və müharibə qayda pozuntularına yol vermir, Ermənistanın məğlubiyyətini özünün məğlubiyyəti hesab edən ölkələr ermənilərə sevgidən yox, özlərinin nüfuzdan düşməməsi üçün Ermənistana bütün vasitələrlə kömək etmək səylərini artırırlar. Hətta Ermənistanda olan 70 il Sovet Rusiyasının bəslədiyi ordunu belə sərhədlərimiz boyu yerləşdirdilər. Lakin, bütün bunlara baxmayaraq, gözləmədikləri ciddi müqavimətlə rastlaşdılar. Çünki Azərbaycanın güclü ordusu və bu ordunu yaradan müdrik siyasi rəhbə ri cənab İlham Əliyevdir.

Bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, onun Prezidenti ulu öndər Heydər Əliyev siyasi kursunu davam etdirən, vətəni və xalqını canından, qanından və bütün varlığından artıq sevən cənab İlham Əliyevdir. Zahirən kiçik görünən və daxilən üçüncü dünya müharibəsi qədər ağır olan bu döyüşdə qalibiyyətimizin səbəbkarı kimi düşmən qüvvələrin hədəfində Qarabağdan qabaq, məhz, Odur! Onu göz bəbəyi kimi qorumağa borcluyuq! Yaşasın müdrik Azərbaycan xalqı! Yaşasın əvəzedilməz Ali Baş Komandan cənab İlham Əliyev! Yaşasın şanlı Azərbaycan ordusu! Yaşasın bir millət, iki dövlət -Azərbaycan-Türkiyə! Qoy ədalət zəfər çalsın! Qarabağ Azərbaycandır!

**Həsən Şirinov.**
**General-mayor, Qızıl Qələm mükafatı laureatı**
**Respublika.- 2020.- 5 noyabr.- S.5.**